# Vəhy: İlahi Kəlamın İnsan Qəlbinə Yol Tapması

**Nazim Babalı**[1]

## Abstrakt

Peyğəmbərlər öz dediklərinə o qədər inanırlar ki, heç bir şərt qarşısında geri çəkilməyə razı deyillər. Onların həyat tarixi və cəmiyyətlərlə davranış tərzi bu həqiqəti tam şəkildə aydınlaşdırır. Peyğəmbərlər öz göstərişlərini və hədəflərini çatdırmaqda ən aydın sözlərdən istifadə etmiş, elə danışmışlar ki, sanki dedikləri həqiqətləri gözləri ilə görürlər. Buna görə də ömürlərinin sonuna qədər o həqiqətlər yolunda müqavimət göstərmiş və fədakarlıq etmişlər. İslam Peyğəmbərinin (s) dedikləri, xüsusilə mübahilə hadisəsi, peyğəmbərlərin öz çağırışlarına inamının ən bariz nümunəsidir.

Digər tərəfdən, peyğəmbərlərin gətirdiyi təlimlər doğumdan ölümə qədər insan həyatının bütün sahələrini əhatə edən aydın və praktiki bir proqram olmuşdur. Bu məqalədə vəhyin mahiyyəti, növləri, peyğəmbərlərin məsumluğu, möcüzə və asketizmdən fərqi kimi əsas məsələlər elmi-nəzəri baxımdan təhlil edilir.

**Açar sözlər:** İslam, vəhy, Quran, Cəbrayıl, nübuvvət, məsumluq, möcüzə

---

[1] - İslam araşdırmaları fakültəsinin məzunu, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran / Bbbalabey@gmail.com

## Giriş: Vəhy Anlayışı və Mahiyyəti

Allah-Təalanın insanları yaratmaqdan məqsədi onların kamilliyə çatması və ilahi-əxlaqi dəyərlərə yiyələnməsidir. Bu səbəbdən Allah-Təala bəndələri ilə müxtəlif vasitələrlə əlaqə saxlamışdır. Bu mənəvi əlaqə və rabitələrin hamısının kökü "vəhy" adlanan ilham qüvvəsinə qayıdır. Başqa sözlə desək, Tanrının insanların haqqa yönəlmələri və vicdanlarının oyanması üçün onlara mənəvi qüvvələrlə ilham etməsinə vəhy deyilir.

İslam dinində ilahi xəbərlərin peyğəmbərlərin vasitəsilə dərk olunmasına da vəhy deyilir. Bu mənada vəhy, Allahla peyğəmbər arasında olan xüsusi bir rabitədir ki, onun vasitəsilə ilahi həqiqətlər insanlara çatdırılır.

## Vəhyin Növləri

Quran ayələrinə əsasən, vəhy üç qismə bölünür:

### 1. Birbaşa Vəhy (Vasitəsiz)

Allahın heç bir vasitə olmadan, birbaşa peyğəmbərlə söhbəti. Allah-Təalanın "merac" gecəsində heç bir vasitə olmadan Məhəmməd Peyğəmbərlə (s) söhbəti buna ən gözəl nümunədir.

### 2. Pərdə Arxasından Vəhy

Allahın hansısa bir vasitə ilə peyğəmbərlərlə söhbəti. Allahın "Tur" ağacına vəhy etmək yolu ilə Musa Peyğəmbərlə (ə) danışığı buna misaldır.

### 3. Mələk Vasitəsilə Vəhy

Allahın peyğəmbərlərə mələk nazil edərək xəbər göndərməsi. Quranın Məhəmməd Peyğəmbərə (s) nazil olması vəhyin bu növünə aiddir.

Uca Allah buyurur: *"Ruhul-Əmin (Cəbrayıl) onu sənin qəlbinə nazil etdi ki, (insanları) qorxudanlardan olasan."* (Şüəra, 193-194)

## İslamda Peyğəmbərin Məqamı: Bəndəlik və Peyğəmbərlik

İslamda xristianlıqdan fərqli olaraq dinin banisi başqaları kimi Allahın bəndəsi və qulu sayılır. Onun başqa bəndələrlə fərqi Allah tərəfindən xəbər gətirməsi və peyğəmbər olmasındadır. Bu məsələ Quran ayələrində dəfələrlə vurğulanır: *"Məhəmməd yalnız Allahın peyğəmbəridir. Ondan əvvəl də peyğəmbərlər gəlib-getmişdir."* (Ali-İmran, 144)

*"Biz hər bir ümmətə peyğəmbər göndərdik ki, onları Allaha ibadətə dəvət etsinlər."* (Nəhl, 36)

*"Biz insanları və cinləri yalnız Mənə ibadət etsinlər deyə yaratdım."* (Zariyat, 56)

Allah-Təala Öz peyğəmbərini "bəndə" olaraq adlandırır: *"Allah Öz bəndəsinə (Məhəmmədə) ehtiyac duyduğu ayələri vəhy etdi."* (Nəcm, 10)

Hətta Həzrət İsa (ə) da xristianların onu tanrılaşdırmasından uzaq olduğunu bildirir: *"Ey Məryəm oğlu İsa, sən camaata dedinmi ki, məni və anamı Allahla yanaşı tanrı qəbul edin?! (İsa) dedi: Sən paksan, mənim bilmədiyim şey barəsində söz deməyə haqqım yoxdur..."* (Maidə, 116)

## Vəhy İlahi Lütfdür, Qazanılan Məqam Deyil

Vəhy və nübuvvət ilahi bir lütf və nemətdir, insanın öz səyi ilə qazandığı bir məqam deyil. Bəzən güman oluna bilər ki, insanlar uzun müddətli fiziki və ruhi məşqlər, xüsusi çalışmalar nəticəsində qeyb aləminə doğru yol aça bilərlər. Asketizm yolu ilə bəzi insanların qeybi məlumatlara çatması, bu fikri təsdiqləyirmiş kimi görünə bilər. Peyğəmbər qavradığı vəhydə heç vaxt şübhə və

səhv etmir. Çünki yaradılış sistemi və obyektiv gerçəklik səhvə yol vermir. Vəhy, insanın özünün dəyişilməz məqsədinə çatması üçün ona açılan ilahi bir yoldur.

**Peyğəmbərlərin Məsumluğu**

Yuxarıdakı müqayisədən aydın olur ki, peyğəmbərlər üç cəhətdən məsum olmalıdırlar:

**Vəhyi qavramaqda** – Ona çatan ilahi mesajı olduğu kimi dərk etməlidir.

1. **Dini qorumaqda** – Aldığı vəhyi təhrif etmədən, dəyişdirmədən qorumalıdır.
2. **Xalqa çatdırmaqda** – Vəhyi olduğu kimi insanlara təbliğ etməlidir.

Həmçinin peyğəmbərin əməlləri də təbliğ xarakteri daşıdığı üçün onun davranışları da səhvdən uzaq olmalıdır. Peyğəmbərin əməlləri ilə sözləri uyğun olmalı, o, həyatın digər sahələrində isə adi bir insandır.

**Nübuvvət Haqqında Əsas Nəzəriyyələr**

Müqəddimədəki izahlara əsasən, nübuvvət haqqında aşağıdakı nəticələrə gəlmək olar:

1. **Nübuvvət qeyri-adi bir hadisədir** və onun səbəbi də özü kimi qeyri-adi şəkildə baş verir.

2. **Möcüzə problemi həll olunur** – Vəhyi sübut edən dəlil xariqülada hadisələrin varlığını da sübut edir. Peyğəmbərlərin möcüzələri də nübuvvətin özü kimi xariqülada hadisələrdir.

3. **Nübuvvət bəşəri ixtilafları aradan qaldırmaq üçündür** – Vəhy insan cəmiyyətindəki ixtilafları həll etmək və insanları səadətə yönəltmək üçün gəlir.

4. **Nübuvvət tədricən kamilləşir** – İnsan növünün təkamülü tədrici olduğu üçün nübuvvət də tədricən kamilləşir və hər yeni dini çağırış əvvəlkindən daha kamil olur. Musa, İsa və Məhəmməd peyğəmbərlərin (s) dini çağırışları bu nəzəriyyəni təsdiq edir.
5. **Sonuncu peyğəmbər** – İnsanın təkamülü onun məhdud ehtiyacları ilə uyğun olduğu üçün, insanın xoşbəxtliyini hərtərəfli təmin edən bir nübuvvət gəldikdən sonra bu qapı bağlanar. İslam peyğəmbərinin (s) gətirdiyi risalət bu sonuncu və ən kamil risalətdir.

**Bir Etiraz və Ona Cavab**

**Etiraz:** Bəşəriyyətin yaradılış sistemi tərəfindən belə bir hidayətçiyə ehtiyacı yoxdur. Çünki insanlar tədricən öz səyləri ilə kamil cəmiyyətə çatacaqlar. Bu gün İsveçrə kimi mədəniyyət ocağı və səadət içərisində yaşayan xalqlar vardır. Digər böyük dövlətlər də gündən-günə real xoşbəxtliyə yaxınlaşmaqdadırlar.

**Cavab:** Bu gün sivilizasiyalı xalqların mədəni inkişafını, artan güclərini görüb əsrimizi işıq əsri adlandırırıq. Lakin diqqətlə baxdıqda görürük ki, keçmiş qaranlıq dövrlərdə bir şəxslə digər şəxs arasında olan əxlaqi çirkinliklər bu gün güclü cəmiyyətlərlə zəif cəmiyyətlər, Qərblə Şərq, ağlarla qaralar arasında yaşanmaqdadır. Zülm, hiylə, fəsad keçmişdə nizamsız şəkildə icra olunurdusa, bu gün ən dəqiq planlar əsasında həyata keçirilir.

İsveçrəyə gəldikdə isə, insanın səadəti təkcə maddi rifahda deyil. Mənəvi səadət və axirət səadəti də vardır. İsveçrə yalnız maddi səadəti müəyyən qədər əldə etmiş, lakin insan səadətinin ən üstün cəhəti olan tövhid dinindən üz çevirmişdir. Tövhid dinini nəzərə almadan əxlaqi səadətə zəmanət vermək mümkün deyil.

## Vəhylə Əqli İdrak Arasındakı Əlaqə

Vəhylə əqli idrak arasında necə bir uyğunluq vardır? Bu suala cavab vermək üçün peyğəmbərlərin xalqla əlaqə qurma tərzinə baxmaq lazımdır.

Dini çağırış əvvəlcə aləmin yaranışı, sonu və insanların ülvi aləmlə bağlılığı məsələlərini, yəni tövhid və məad məsələlərini ortaya qoyur. Sonra isə xalqı bu dünyagörüşünə əsaslanan əxlaqi dəyərlərə və cəmiyyətin mənafeyinə uyğun qanunlara hidayət edir.

Vəhyin hədəflərinin bizə aid olan tərəfini ağılla dərk etmək mümkündür: bir hissəsini birbaşa və müstəqil şəkildə, şəriətdən ibarət olan digər hissəsini isə peyğəmbərin vasitəsilə. Lakin vəhyin bu həqiqətlərə necə çatması bizim üçün qaranlıqdır. Yəni dinin ehate etdiyi etiqadlar, əxlaqi məsələlər və qanunlar arasında bizim üçün qaranlıq olan həqiqi bir əlaqə vardır.

Peyğəmbər vəhylə onların sirli əlaqəsini dərk etmiş, onu bizə çatdıran zaman isə adi dillə danışmış və bizim zehnimizin məntiqi əlaqələrindən istifadə etmişdir.

## Nübuvvət Qurumunun Əhatə Dairəsi

Bütün deyilənlərdən aydın olur ki, nübuvvət insanın cismi və ruhi səadətinə zəmanət verən ilahi bir qurumdur və təkcə maddi cəmiyyəti hidayət edən bir qurum deyildir. Peyğəmbər də ictimai bir mütəfəkkir və dahi deyil, Allah tərəfindən seçilən bir şəxsdir. Haqq dinlərdəki ibadətlər, peyğəmbərlərin davranışları və uzun-uzadı ibadətləri bu sözün ən yaxşı sübutudur.

## Möcüzə: Xariqüladəliyin Elmi Təhlili

### Möcüzənin Tərifi

Möcüzə növündən və formasından asılı olmayaraq xariqüladə bir işdir və gündəlik rastlaşdığımız adi səbəblər yolu ilə yaranmır.

Əgər bir hadisə adi səbəblərlə baş verərsə, yaxud səbəblərini bilməsək də onun adi yolla yarandığını bilsək, belə hadisələrə möcüzə deyilmir.

Lakin bütün xariqüladə işlərə də möcüzə deyilmir. Kəramət, duanın müstəcab olması, sehr də xariqüladə işlərdir, lakin möcüzədən fərqlənirlər.

## Möcüzəyə Edilən Bir Etiraz və Cavabı

**Etiraz:** Əgər möcüzə səbəbiyyət qanunundan kənar baş verirsə, bu mümkün deyil. Əgər adi hadisələr kimi səbəblərlə baş verirsə, onda bu səbəbləri bilməyənlər üçün möcüzə sayıla bilər. Gələcəkdə bütün səbəbləri kəşf etsək, möcüzə də qalmayacaq. Deməli möcüzə həqiqi deyil, nisbi bir dəlildir.

**Cavab:** Ümumi səbəbiyyət qanunu istisnasız bir qanundur və möcüzənin də bizə məchul olsa belə, təbii səbəbləri vardır. Lakin möcüzənin əsl həqiqəti onun məğlubedilməz bir qüdrətə söykənməsidir. Möcüzənin məchul səbəbini tanımağın insana heç bir xeyri yoxdur, çünki sonsuz qüdrətdən qaynaqlanan belə bir hadisəni yaratmaq ona müyəssər olmayacaq.

## Quran Ayələri Işığında Möcüzə

Qurani-Kərimdə möcüzə ilə bağlı bir çox ayələr vardır. Bunlardan bir neçəsi: *"Elə bir şey yoxdur ki, onun xəzinələri Bizdə olmasın. Lakin Biz ondan ancaq müəyyən miqdarda endiririk."* (Hicr, 21)

*"Elə bir canlı yoxdur ki, onun ixtiyarı Allahın əlində olmasın. Çünki Rəbbimin işləri yeknəsəqdir."* (Hud, 56)

*"Allah (Lövhi-məhfuzda): «And olsun ki, Mən və peyğəmbərlərim qalib gələcəyik!»– deyə yazmışdır."* (Mücadilə, 21)

*"And olsun ki, peyğəmbər bəndələrimiz haqqında əvvəlcədən bu sözü demişdik: «Onlar mütləq qalib gələcəklər. Bizim əsgərlərimiz labüd olaraq zəfər çalacaqlar!»"* (Saffat, 171-173)

*"Şübhəsiz ki, Biz öz peyğəmbərlərimizə və iman gətirənlərə həm dünyada, həm də şahidlərin şəhadət verəcəyi qiyamət günündə yardım edəcəyik!"* (Mömin, 51)

*"Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim!"* (Mömin, 60)

*Möcüzənək* sehri məğlub etməsi barədə isə buyurulur: *"Sizin etdiyiniz şey sehrdir. Allah, sözsüz ki, onu batil edəcəkdir."* (Yunus, 81)

Bütün bu ayələrdən aydın olur ki, möcüzə haqqında Quranın nəzəri ağılın nəzəri ilə üst-üstə düşür. Ən doğrusunu Allah bilir.

## Nəticə

Vəhy, Allahla peyğəmbərlər arasında olan xüsusi bir əlaqədir ki, bu vasitə ilə ilahi həqiqətlər insanlara çatdırılır. Bu əlaqə üç formada ola bilər: birbaşa, pərdə arxasından və mələk vasitəsilə. İslam peyğəmbərinə vəhy Cəbrayıl (ə) vasitəsilə nazil olmuşdur.

İslamda peyğəmbər Allahın bəndəsi və elçisidir, tanrı deyil. O, başqa insanlar kimi bir bəşərdir, lakin Allah tərəfindən seçilmiş və vəhyə layiq görülmüşdür.

Vəhy ilahi bir lütfdür, qazanılan bir məqam deyil. Bu xüsusiyyəti ilə asketizmdən qaynaqlanan ilhamlardan tamamilə fərqlənir. Peyğəmbərlər vəhyi qavramaqda, qorumaqda və təbliğ etməkdə məsumdurlar.

Nübuvvət insanın həm maddi, həm də mənəvi səadətinə zəmanət verən ilahi bir qurumdur. Möcüzələr də bu qurumun ayrılmaz hissəsidir. Möcüzə, sehr və kəramətdən fərqli olaraq,

haqqı sübut etmək və insanları mübarizəyə çağırmaq məqsədi daşıyır.

Möcüzələr səbəbiyyət qanunundan kənar deyil, lakin onların səbəbləri bizə məlum deyil və məğlubedilməz bir qüdrətə söykənir. Bu xüsusiyyəti ilə möcüzə əbədi və qalib bir dəlildir.

Vəhy və nübuvvət məsələsi İslam dininin ən mühüm etiqadi məsələlərindəndir. Bu mövzunu dərindən anlamaq, insanın Allahla əlaqəsini, peyğəmbərlərin rolunu və ilahi kitabların mahiyyətini daha yaxşı dərk etməyə kömək edir.

## Ədəbiyyat

Qurani-Kərim – A. Mehdiyevin tərcüməsi, Bakı, 2009
Nəhcül-Bəlağə – İmam Əlinin (ə) kəlamları
Amoli, Cavadi, "Təsnim", Qum, 1396 (h.q.)
Təbatəbayi, Məhəmmədhüseyn, "Əl-Mizan", Qum, 1389 (h.q.)
Məkarim Şirazi, "Təfsire-Nümunə", Qum, 1390 (h.q.)
Səbzevari, "Möcüzə və Nübuvvət Fəlsəfəsi", Tehran, 1385
Cəfəri, Məhəmmədtağı, "Vəhy və Nübuvvət", Qum, 1392